## “Aztelekom” MMC-nin 2020-ci il audit edilmiş maliyyə hesabatlarının qısa icmalı

Cəmiyyətin gəlirləri, əsasən, internet və telefon xidmətləri üzrə formalaşır və 2019-cu illə müqayisədə 2020-ci ilin gəliri 7,5% artaraq **90 677 min manata** çatmışdır.

Ümumi gəlirlərdə müşahidə edilən artıma baxmayaraq, Cəmiyyət 2020-ci ili **8 516 min manat** zərərlə başa vurmuşdur. Zərərin formalaşmasına əsas səbəb əmək haqqı üzrə xərclərin və amortizasiya xərclərinin artması olmuşdur. Belə ki, işçilərin sosial rifahının yaxşılaşdırılması, həmçinin pandemiya ilə əlaqədar bəzi işçi heyətinin gücləndirilmiş iş rejiminə keçirilməsi əlavə ödənişlərin yaranmasına və müvafiq xərc maddəsinin müşahidə edilən ildə **14%** artmasına gətirib çıxarmışdır.

Zərərin formalaşmasına səbəb olan digər xərc maddələrindən amortizasiya xərcindəki artım Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Starteji Yol Xəritəsinə uyğun olaraq iqtisadiyyatın rəqəmsallaşdırılması üçün İnformasiya Kommunikasiya Texnologiyaları infrastrukturunun təkmilləşdirilməsi istiqamətində Cəmiyyətin kapital qoyuluşları proqramını yerinə yetirməsi ilə əlaqədar olmuşdur. Belə ki, müvafiq proqram çərçivəsində tikintisi və quraşdırılması başa çatmış əsas vəsaitlər istismara verilmiş və bu da öz növbəsində əvvəlki telekommunikasiya sistemləri və avadanlıqların daha tez köhnəlməsinə gətirib çıxarmış, nəticədə amortizasiya xərci **29%** artmışdır.

Cəmiyyətin əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitləri 2020-ci il üzrə **12 429 min manat** təşkil etmişdir və bundan əlavə dövlət büdcəsindən regionlarda Universal Telekommunikasiya Xidmətlərinin təmin edilməsi ilə əlaqədar **17 601 min manat** məbləğində vəsait ayrılmışdır. (Həmin məbləğ 2019-cu ildə **10 372 min manat** olmuşdur). Ümumilikdə Cəmiyyətin 2020-ci ilin sonuna pul vəsaitlərinin vəziyyəti ötən illə müqayisədə xeyli yaxşılaşaraq **621 min manatdan 3 325 min manata** qədər artmışdır.